Carçı



# MƏNİ BU BİZNESƏ MƏHZ ELM GƏTİRDİ

*RUSLAN ƏLİYEV*

*2011-cı ildən №75 APREL/2026*

Carçı

"ATƏŞGAH" SIĞORTA QRUPUNUN
RÜBLÜK JURNALI

№ 75
APREL/ 2026

AtəşgahSığorta

# MÜNDƏRİCAT




## Göstərilən əzmkarlığın mükafatı

səh. 15

Ruslan Əliyev ilə müsahibə
səh. 03

Birlik və inamın gücü
səh. 06

Şəhidlər unudulmur!
səh. 07

Maarifləndirici sessiyalar
səh. 08

Beynəlxalq sertifikatlar
və əməkdaşların uğurları
səh. 09

Mükafatlandırma mərasimləri
səh. 10

"30 il-Sonsuz ümid"
səh. 11

Onların sevinci bizim uğurumuzdur!
səh. 12

KASKO xəbərləri
səh. 13

Göstərilən əzmkarlığın mükafatı
səh. 15

"Maraqlı faktlar" rubrikası
səh. 16

Siz də jurnalımızın müəllifi və ya aktiv üzvü ola bilərsiniz. Özünüzü yeni sahədə sınayın!

Biz yeni fikir və təkliflərə açığıq.

İstək və təkliflərinizi elektron ünvanımıza göndərin:

**pr@ateshgah.com**

Hazırki nüsxədə əməyi keçənlər:

L. Babayeva
Ş.Həsənsoy
T. Cəfərova

# Ruslan Əliyev ilə müsahibə

*“Atəşgah”- sadəcə bir iş yeri deyil. Bu, bir taledir!*



*Bu gün həyat yolu şirkətimizin tarixi ilə heyrətamiz şəkildə kəsişən bir şəxslə həmsöhbətik. Bu xüsusi müsahibəmizdə diplomatiya, dostluq, “Atəşgah” Sığorta Qrupunun formalaşma mərhələləri, rəhbərlikdə nəsil dəyişikliyi və gələcəyə baxış mövzularına toxunacağıq.*

1 **Deyirlər, həyatda heç nə təsadüfi olmur. Sizin bioqrafiyanızda uşaqlıq illərinizi şirkətin bugünkü ofisi ilə birləşdirən olduqca maraqlı bir məqam var. Zəhmət olmasa, bu barədə danışardınız?**

Bəli, bu, doğrudan da taleyin bir işarəsinə bənzəyir. Mən Moskvada anadan olmuşam, lakin 1977-ci ildə atam Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyində işə təyin edildikdən sonra biz ailəmizlə Bakıya köçdük. Maraqlısı odur ki, bizi İçərişəhərdə, V. Məmmədov küçəsi 16 ünvanında yerləşən bir binada mənzillə təmin etdilər. Bu gün “Atəşgah”ın ofislərindən biri məhz həmin ünvanda yerləşir.

Uşaqlıq və gənclik illərim burada keçib. 1980-ci ildə 6 nömrəli məktəbin birinci sinfinə getmişəm və 1990-cı ildə oranı bitirmişəm. Sonra isə, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutuna qəbul olaraq Moskvaya köçmüşəm. Yəni, bu divarlar hələ şirkətimiz burada yerləşməzdən çox-çox əvvəl mənim üçün doğma ocaq olub. Buna görə də ofisimizin burada yerləşməsini mən öz köklərimə qayıdış kimi qəbul edirəm.

2 **Sizin karyera yolunuz diplomatiya ilə başlayıb. Beynəlxalq siyasətdən sığorta sahəsinə keçid necə baş verdi?**

1996-cı ildə institutu bitirdikdən sonra arzumu gerçəkləşdirib diplomat oldum və Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı Səfirliyində fəaliyyətə başladım. Bu, məni həyatda yoldaşlıq etdiyim insanlarla rastlaşdıran gözəl bir dövr idi. Orada Namiq Xəlilov və Sevinc Məmmədova ilə tanış oldum. Biz artıq uzun illərdir ki, dostluq edirik. Onlar eyni zamanda həm şirkətimizin, həm də bütün sığorta bazarının inkişafına töhfə verən həmkarlarımdır və mən bununla fəxr edirəm.

Səfirlikdəki fəaliyyətimlə paralel olaraq aspiranturaya qəbul olundum. Elmi maraqlarım iqtisadiyyat və risklər sahəsinə yönəldiyi üçün, sığorta ilə bağlı mövzuda dissertasiya yazmağa başladım. Məni bu biznesə məhz elm gətirdi.



3 **Siz bazarın yeni formatda qurulması və yüksək beynəlxalq standartlara uyğunlaşdırılması prosesində bilavasitə iştirak etmisiniz. Bu mərhələdə yollarınızın "Atəşgah"la necə kəsişdiyi barədə danışa bilərsinizmi?**

Bu, 1997-ci ildə baş verdi. Sığorta üzrə namizədlik dissertasiyam üzərində iş çərçivəsində elmi rəhbərim Turbina Kapitolina ilə birgə yerli bazarla tanış olmaq məqsədilə Bakıya səfər etdik.Həmin vaxt mən ilk dəfə "Atəşgah"ın Baş direktoru İntiqam Hüseynovla və Azərbaycanın sığorta nəzarəti orqanının o vaxtkı rəhbəri, bu gün də şirkətimizdə vəzifə tutan Azər Cəfərov da daxil olmaqla, sığorta sahəsinin bir çox digər nümayəndələri ilə görüşdüm.Həmin səfər həlledici oldu: o, mənə nəinki iqtisad elmləri namizədi elmi dərəcəsi almaq üçün dissertasiyamı uğurla müdafiə etməyə kömək etdi, həm də gələcək əməkdaşlığımızın təməlini qoydu.

4 **Bəs şirkətə rəsmi olaraq nə vaxt qoşuldunuz?**

90-cı illərdə mənim ağlıma belə gəlməzdi ki, tale məni "Atəşgah" və sığorta biznesi ilə bu qədər sıx bağlayacaq. Lakin 1999-cu ildə Karlovı Varıda istirahət zamanı baş tutan növbəti görüşümüzdən sonra İntiqam Hüseynov mənə imtina edə bilməyəcəyim bir təklif etdi: elmi biliklərimi praktikada reallaşdırmaq.
Mən bu fürsəti böyük sevinclə qarşıladım. Beləliklə, 2000-ci ilin martında Azərbaycan Respublikası Xarici İşlər Nazirliyindən SOCAR-a, Xarici Sərmayələr İdarəsinin sığorta və risklərin idarə edilməsi üzrə rəis müavini vəzifəsinə təyin olundum. Beləcə, əfsanəvi Valeh Ələsgərovun rəhbərliyi altında çalışmağa başladım. Bu, mənim üçün əsl məktəb oldu: ondan strateji düşünməyi, cari tapşırıqların arxasındakı tam mənzərəni görməyi və özümə, eləcə də komandaya qarşı tələbkarlıq səviyyəsini heç vaxt aşağı salmamağı öyrəndim.
O vaxt SOCAR həm də "Atəşgah"ın səhmdarlarından biri olduğu üçün mən eyni zamanda SOCAR-ın "Atəşgah"dakı nümayəndəsi təyin olundum.

5 **Keçmişə nəzər salsanız, bu illər ərzində şirkətin inkişafını necə təsvir edərdiniz?**

Bütün görülmüş işləri bir müsahibədə təsvir etmək qeyri-mümkündür. Detallarla maraqlanan şəxslərə bu tarixin canlı şahidləri və qurucuları ilə əlaqə saxlamağı məsləhət görürəm — xoşbəxtlikdən, onların çoxu hələ də bizimlədir: İntiqam Hüseynov, Namiq Xəlilov, Natiq Əmircanov, Fuad Sultanov, Məmmədəli Hüseynov, Ayla Mustafayeva, Tahir Kazımov və digərləri.
Həmçinin, rusiyalı dostlarımızın və həmkarlarımızın — Vladimir Solovyov, Yekaterina Şebarova və İqor Smaqanın töhfələrini xüsusi minnətdarlıq hissi ilə vurğulamaq istərdim. Müxtəlif dövrlərdə şirkətimizdə vacib rəhbər vəzifələrdə çalışmış bu şəxslər qabaqcıl təcrübə və yeni yanaşmalar gətirərək şirkətimizin inkişafına əhəmiyyətli töhfələr veriblər.

### Ümumilikdə, mən "Atəşgah" Sığorta Qrupunun tarixini üç böyük mərhələyə bölərdim:

- 1996–2008-ci illər — Korporativ sığortanın yaranma dövrü. Bu, böyük bizneslər üçün sığorta mədəniyyətini formalaşdırdığımız, energetika və sənaye sektorlarındakı ilk əsas müştərilərimizlə işlədiyimiz dövr idi.
- 2009–2020-ci illər — Pərakəndə satışın inkişafı. Biz xalqa üz tutduq, sığortanı kütləvi istehlakçılar üçün əlçatan etdik. Burada Tələt Səfərovun rolunu xüsusi qeyd etmək lazımdır. Məhz onun rəhbərliyi altında "Atəşgah" bu istiqamətdə əsl sıçrayış etdi və pərakəndə sığorta bazarında aparıcı şirkətə çevrildi. Elə həmin dövrdə Azər Əliyev Azərbaycan Sığortaçılar Assosiasiyasına rəhbərlik edərək ölkənin bütün sığorta bazarının inkişafına böyük töhfə verdi.
- 2021-ci ildən bu günə qədər — Universal oyunçunun formalaşması.
  Hazırda biz üçüncü mərhələni formalaşdırırıq: "Atəşgah" SQ-nin hazırda birbaşa sığortada, gələcəkdə isə həm də təkrarsığortada universal peşəkar lider kimi təşəkkülü.

6 **Hazırda üçillik strategiyanın (2025–2027) aktiv reallaşdırılma mərhələsindəyik. Hansı əsas mərhələləri qeyd edərdiniz?**

### Bizim çox dəqiq bir planımız var:

- 2025-ci il fundamental dəyişikliklər ili oldu: biz Zərərlərin Tənzimlənməsi blokunun islahatına başladıq və bu idarəetmə üçün yeni, müasir ofis qurduq, rəqəmsallaşmanın davam etdirilməsi üçün yeni strategiyanı təsdiqlədik və daxili təlim sistemini tətbiq etdik.
- 2026-cı ildə əsas diqqət məhsullara və kadrlara yönəlmişdir. Bizi KASKO, KTS (könüllü tibbi sığorta) və həyat sığortası üzrə genişmiqyaslı layihələr gözləyir. Bu çərçivədə şirkət daxilində əməkdaşların təlim proqramını genişləndiririk, həmçinin CII (Chartered Insurance Institute) ilə strateji əməkdaşlığa başlayırıq. Bu seçimlərimiz təsadüfi deyil. "Atəşgah" ənənəvi olaraq kadr hazırlığına böyük diqqət yetirir. Biz təkcə sığorta bazarı üçün deyil, iqtisadiyyatın digər sahələri və hətta dövlət orqanları üçün "istedadlar donoru" olmaqdan qürur duyuruq.
- 2027-ci ilə qədər isə proseslərimizi və anderraytinqi tam mükəmməl hala gətirərək, həm ölkə daxilində, həm də onun hüdudlarından kənarda tərəfdaşlara təkrarsığorta xidmətlərini inamla təklif edə biləcəyik.

7 **Bu genişmiqyaslı planlar fonunda Siz bir çoxları üçün gözlənilməz olan bir qərar verdiniz — Direktorlar Şurasını tərk etmək və estafeti təhvil vermək. Bu addım nə ilə bağlı idi?**

Bu, ani verilmiş bir qərar deyildi. Mən 14 il ərzində — 2011-ci ildən 2025-ci ilə qədər fasiləsiz olaraq Direktorlar Şurasının sədri vəzifəsini tutmuşam və addımım yenilənmə üçün doğru məqamın yetişdiyini hiss etməyimdən irəli gəlib. Mən əminəm ki, hər bir güclü təşkilat yeni nəsil idarəçilərə vaxtında yol açmalıdır.

Bu vəzifədən ayrılmaqla həm də digər rəhbərlərə nümunə olmaq istədim: öz yerinə vaxtında əvəzedici hazırlamaq və digər vəzifələrə keçmək lazımdır. Karyera yolu mütləq şaquli yüksəlişdən ibarət deyil; üfüqi istiqamətdə də inkişaf etmək, öz güc və təcrübənizi yeni sahələrdə tətbiq etmək mümkündür və lazımdır.

Hazırda şirkətdə yeni enerjiyə və müasir baxışa malik peşəkarlar komandası formalaşıb. Şuradakı operativ idarəetmədən kənara çəkilməklə, bu prosesi dəstəkləməyi vacib hesab edirəm.

8 **Sizcə, Direktorlar Şurasının yeni üzvləri şirkətin gələcək inkişafında hansı rolu oynayacaqlar?**

Onlara böyük ümidlər bəsləyirəm. Şuranın yeni üzvləri — Sadıq Mansurov, Könül İsgəndərova, Ayla Mustafayeva, eləcə də dəvət olunmuş müstəqil direktor Murad Rəhimov gənclik, təcrübə və peşəkarlığın vəhdətini təmsil edirlər. Onlar şirkətə yeni baxış, müasir idarəetmə yanaşmaları və yüksək motivasiya gətirirlər. Onların iştirakı şirkətin gələcək böyüməsi və bazarın yeni çağırışlarına uyğunlaşması üçün möhkəm təməl yaradır.

Bundan əlavə, hörmətli həmkarlarımız Namiq Xəlilov və Azər Əliyev çoxillik təcrübələri nəzərə alınaraq, şirkətlərdə Direktorlar Şuralarına sədr təyin olunublar. Belə bir struktur həm varisliyi, həm də strateji dərinliyi təmin edir.



9 **Bazar rəqabətlidir. “Atəşgah”ın liderlər üçlüyündə qalması üçün nə lazımdır?**

Biz artıq özünü doğrultmuş ənənələrimizi qorumalıyıq. Əlbəttə ki, öz Missiya və Vizyonumuza  mütləq şəkildə əməl etməliyik. Onlar bu gün hər zamankından daha aktualdır: “Əhalini və biznesləri inklüziv və etibarlı maliyyə müdafiəsi ilə təmin etmək”. Bu, bizim yol göstəricimizdir.

10 **Şəxsi bir sual. Bu gün Sizin üçün “Atəşgah” nə deməkdir?**

Mənim üçün “Atəşgah” həyatda üç əsas amili reallaşdırmaq üçün bir platformadır: daimi fərdi inkişaf, cəmiyyətə xidmət və ölkəmizi beynəlxalq arenada layiqincə təmsil etmək. Bütün bunlara görə mən şirkətimizə borcluyam.

11 **Nələri arzu edirsiniz?**

Arzu edirəm ki, sığorta bazarı həm peşəkarlıq, həm də həcm baxımından inkişaf etsin. “Atəşgah” Sığorta Qrupu  isə bu bazarla birgə böyüməklə yanaşı, həm də daim təkmilləşərək və liderliyini qoruyaraq bu artımın aparıcı qüvvəsi olsun.

Bir arzum da budur ki, övladlarımdan biri bu yolu seçsin, sığortaçı kimi bu inanılmaz dərəcədə maraqlı və çoxşaxəli peşəyə yiyələnsin və mənim başladığım işi davam etdirsin.

Son olaraq, arzulayıram ki, Uca Yaradan mənə nə qədər ömür payı ayırıbsa, son günlərimə qədər şirkətimizin inkişafında iştirak edim və ortaq uğurlarımızdan zövq alım! Amin!

# Birlik və inamın gücü

Yanvar ayı şirkətimiz üçün yalnız yeni ilin başlanğıcı deyil, həm də dəyərlərimizin, birlik və mənəvi bağlılığımızın daha da möhkəmləndiyi xüsusi bir dövr kimi yadda qaldı. “Atəşgah” Sığorta Qrupu olaraq əməkdaşlarımızın rifahını və mənəvi inkişafını daim diqqət mərkəzində saxlayırıq. Bu baxımdan artıq ənənəyə çevrilmiş Ümrə ziyarətləri şirkətimizin korporativ mədəniyyətinin ayrılmaz hissəsinə çevrilmişdir.



Bu ilin 10 yanvar tarixində Ruslan Əliyevin təşəbbüsü ilə şirkətin bir qrup əməkdaşı müqəddəs Ümrə ziyarətinə yola salınmışdır. Bu təşəbbüs şirkətin İslami dəyərlərə olan dərin hörmətinin və əməkdaşlara göstərilən xüsusi qayğının bariz nümunəsidir. Ziyarətdə şirkətin rəhbər heyətinin nümayəndələri – “Atəşgah Həyat” Sığorta Şirkətinin İdarə Heyətinin sədri Azər Əliyev və “Atəşgah” Sığorta Şirkətinin İdarə Heyətinin üzvü, Baş risk inzibatçısı Xumar İmamverdiyeva da iştirak etmişlər. Zəvvarlar İslam dünyasının ən müqəddəs məkanı olan Kəbəni ziyarət etmiş, Ümrə ibadətinin əsas mərasimlərini böyük məsuliyyət və mənəvi bağlılıq hissi ilə yerinə yetirmişlər. Qeyd etmək istərdik ki, həyata keçirilmiş bu səfər əməkdaşların daxili aləminin formalaşmasına təsir etmiş, mənəvi dəyərlərə bağlılıqlarını daha da gücləndirmişdir.







# Şəhidlər unudulmur!

Azərbaycan xalqının azadlıq və müstəqillik tarixində silinməz iz buraxmış 20 Yanvar faciəsi hər il dərin ehtiram və hüznlə yad edilir. Bu tarix xalqımızın iradəsinin, milli birliyinin və azadlıq uğrunda göstərdiyi fədakarlığın rəmzidir.
20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar şirkətimizin kollektivi bu il də Şəhidlər xiyabanını ziyarət etdi. Anım mərasimində "Atəşgah" Sığorta Şirkətinin İdarə Heyətinin sədri Elçin Əhmədov və "Atəşgah Həyat" Sığorta Şirkətinin İdarə Heyətinin sədri Azər Əliyev də iştirak etmişdir.
Ziyarət zamanı vətənimizin azadlığı və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi dərin hörmət və ehtiramla anılmış, məzarları önünə gül dəstələri düzülmüşdür.









# Maariflǝndirici sessiyalar

Fevral ayı ərzində əməkdaşların peşəkar bilik və bacarıqlarının inkişafına yönəlmiş iki mühüm maarifləndirici və praktiki sessiya uğurla həyata keçirildi. 6 fevral tarixində tərəfdaşımız olan ASAN İnnovativ İnkişaf Mərkəzi ilə birgə təşkil olunan seminar süni intellektin iş mühitində praktik tətbiqinə həsr olunmuşdur. Mərkəzin təlimçisi Nofəl Əliyevin rəhbərliyi ilə keçirilən sessiyada süni intellekt yalnız nəzəri anlayış kimi deyil, real iş proseslərində etibarlı və effektiv assistent kimi təqdim edilmişdir. Seminar çərçivəsində “Süni intellekt iş prosesini necə asanlaşdıra və təkmilləşdirə bilər?” sualı ətrafında geniş müzakirələr aparılmış, AI alətlərinin gündəlik iş yükünün azaldılmasında, yazışmaların idarə olunmasında, analizlərin aparılmasında, ideya yaradılmasında və qərarvermə prosesində oynadığı rol praktiki nümunələr üzərində iştirakçılara nümayiş etdirilmişdir. Eyni zamanda, bu texnologiyaların vaxtın daha səmərəli idarə olunmasına və iş keyfiyyətinin artırılmasına verdiyi töhfələr xüsusi vurğulanmışdır.








20 fevral tarixində isə İnsan kapitalının inkişafı üzrə layihə rəhbəri Vüqar Hüseynlinin təşkilatçılığı ilə Tənzimləmə Departamenti tərəfindən sığorta hadisələrinin tənzimlənməsi prosesi ilə bağlı maarifləndirici sessiya keçirilmişdir. Tədbirin giriş hissəsində Zərərlərin Tənzimlənməsi Departamentinin direktor müavini Nigar Yarməmmədova departamentin fəaliyyət istiqamətləri və struktur bölmələri haqqında ümumi məlumat vermişdir. Daha sonra Müştəri xidmətləri şöbəsinin mütəxəssisi Tuncay Qafarlı sığorta hadisələrinin qəbulundan yekun qərarın verilməsinədək olan mərhələləri ardıcıllıqla izah etmiş, xüsusilə İcbari və Kasko sığortası üzrə tənzimləmə mexanizmlərini ətraflı şəkildə təqdim etmişdir. Sessiya zamanı hadisələrin qeydiyyatı, zərərin qiymətləndirilməsi, ekspertiza prosesi, tələb olunan sənədlər, qərarvermə meyarları və ödəniş prosedurları praktiki nümunələr əsasında iştirakçılara izah edilmişdir. Bununla yanaşı, müştəri məmnuniyyətinin təmin olunması, operativlik və şəffaflığın qorunmasının tənzimləmə prosesində əsas prioritetlərdən olduğu xüsusi qeyd edilmişdir. Tədbirin sonunda əməkdaşların sualları cavablandırılmış, real hadisələr üzərində müzakirələr aparılmış və mövzu ətrafında səmərəli fikir mübadiləsi həyata keçirilmişdir. Hər iki sessiya əməkdaşların həm texnoloji yeniliklərə adaptasiyasına, həm də peşəkar sahə biliklərinin dərinləşdirilməsinə mühüm töhfə vermişdir.







# Beynəlxalq sertifikatlar və əməkdaşların uğurları

"Atəşgah" Sığorta Şirkəti olaraq, əldə etdiyimiz uğurlar və davamlı inkişafın müsbət istiqamətdə irəliləməsi, bizə daha böyük hədəflər müəyyən etməyə imkan verir. 2025-ci il ərzində şirkətimiz ISO 9001 (Keyfiyyətin idarə olunması sistemi) və ISO 10002 (Müştəri şikayətlərinin idarə olunması sistemi) standartları üzrə resertifikasiya auditi keçirmişdir. Auditin nəticələri göstərmişdir ki, şirkətimizin idarəetmə sistemləri beynəlxalq standartların tələblərinə tam uyğun gəlir və nəticədə ISO 9001 və ISO 10002 sertifikatlarımız uğurla yenilənmişdir. Bu uğur, yalnız şirkətimizin keyfiyyət və müştəri məmnuniyyətinə olan sadiqliyini deyil, həm də ümumi inkişafımıza və qlobal səviyyədəki standartlara uyğunluğumuzu nümayiş etdirən mühüm bir göstəricidir.




Eyni zamanda, şirkətimiz əməkdaşlarının peşəkar inkişafını daim dəstəkləyərək, onların beynəlxalq səviyyədə tanınmış sertifikatlar əldə etmələrinə imkan yaratmaqda davam edir. Bu uğurlar, yalnız fərdi əməkdaşlarımızın inkişafını deyil, ümumilikdə şirkətimizin mütəxəssis səviyyəsinin yüksəlməsini təmin edir.

Maliyyə Departamentinin Mühasibat uçotu, vergi uçotu və xarici hesabatlıq şöbəsinin aparıcı mühasibi Mirhüseyn Seyidov “F7 ACCA Financial Reporting (FR)” imtahanını uğurla başa vurmuşdur. Bu imtahan maliyyə sahəsində ən nüfuzlu beynəlxalq sertifikatlardan biri sayılır və iştirakçılarına bütün maliyyə hesabatlarını Beynəlxalq Maliyyə Hesabatı Standartlarına (IFRS) uyğun hazırlamağı öyrədir.








19 yanvar 2026-cı il tarixində isə Əmlak sığortası növləri üzrə anderraytinq və təkrarsığorta şöbəsinin aparıcı mütəxəssisi Aytən Mustafayeva, Chartered Insurance Institute (CII) tərəfindən keçirilən imtahanın 3-cü mərhələsi olan IF4 - Insurance Claims Handling Process imtahanını müvəffəqiyyətlə başa vurmuşdur. Beləliklə, Aytən Mustafayeva artıq W01 - Award in General Insurance, IF3 - Insurance Underwriting Process və IF4 - Insurance Claims Handling Process beynəlxalq imtahanlarını müvəffəqiyyətlə tamamlamışdır. Bu nəticə, onu CII Level 3 Certificate in Insurance beynəlxalq sertifikatına layiq görmüşdür.

Növbəti uğur 10 mart 2026-cı il tarixində Əmlak sığortası növləri üzrə anderraytinq və təkrarsığorta şöbəsinin aparıcı mütəxəssisi Nərmin Əmircanova tərəfindən əldə edilib. Əməkdaşımız, Chartered Insurance Institute (CII) tərəfindən keçirilən imtahanın 2-ci mərhələsi olan IF3 - Insurance Underwriting Process imtahanını uğurla başa vurmuşdur.







Daha bir uğur 12 mart 2026-cı il tarixində Partnyor satışlarının inkişafı departamentinin direktor müavini Lalə Axundova tərəfindən qazanılmışdır. Lalə Axundova, Chartered Insurance Institute (CII) tərəfindən keçirilən imtahanın 1-ci mərhələsi olan W01 - Award in General Insurance imtahanını müvəffəqiyyətlə başa vurmuşdur.

# Mükafatlandırma mərasimləri

19 mart 2026-cı il tarixində şirkətimiz əməkdaşlarının uğurlarını qiymətləndirmək və onların motivasiyasını artırmaq məqsədilə bir neçə əlamətdar tədbir təşkil etmişdir. Şirkət daxilində müxtəlif sahələrdə keçirilən mükafatlandırma mərasimləri, əməkdaşların göstərdikləri yüksək nəticələri və səyləri qiymətləndirmək üçün əhəmiyyətli bir fürsət yaratmışdır. İlk olaraq, əməkdaşlar arasında təşkil olunan futbol turnirində qalib gələn komandalar mükafatlandırıldı. Turnirin qalibi olan "Korporativ" komandası əsas mükafat olan kuboku qazandı. "AtəşStar" komandası ikinci, "Tənzimləmə" komandası isə üçüncü yeri tutaraq medallarla təltif edildilər. Yarışda iştirak edən digər komandalar da öz mübarizələrinə görə xüsusi təltifnamələrlə mükafatlandırıldılar. Bütün iştirakçılar yarış boyunca yüksək komanda ruhu və həmrəylik nümayiş etdirərək, turnirin yüksək səviyyədə keçirilməsinə töhfə vermişlər.
Eyni gün, "Satış üzrə mütəxəssis" kursunu uğurla başa vurmuş əməkdaşlara da sertifikatlar təqdim edildi. Kursu bitirən əməkdaşlar şirkət rəhbərliyinin iştirakı ilə keçirilən tədbirdə mükafatlandırıldılar.








Son olaraq, şirkətin əməkdaşlarının karyera inkişafını dəstəkləmək məqsədilə, "Sığortanın əsasları" təlim proqramında iştirak edən və uğur qazanan əməkdaşlara da sertifikatlar təqdim edildi. Təlim proqramı çərçivəsində əldə edilən nəticələr, əməkdaşların peşəkar bacarıqlarının artırılması baxımından böyük əhəmiyyət kəsb edir və şirkətin inkişafına verdikləri töhfəni daha da dərinləşdirir.

Şirkət olaraq hər zaman beynəlxalq əməkdaşlığa da xüsusi önəm veririk və bu sahədəki təcrübəmiz, tərəfdaşlarımızla qurduğumuz davamlı əlaqələr sayəsində daha da güclənir. Bu əlaqələr bizə beynəlxalq səviyyədə etibar qazanmağa imkan verir. Bu prinsipə əsaslanaraq, Böyük Britaniya səfirliyinin təqdim etdiyi sertifikat, şirkətimizin beynəlxalq səviyyədə mövcud olan etibarını və qarşılıqlı etimada dayanan əməkdaşlığını bir daha təsdiqlədi. Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri, Zati-aliləri cənab Fergus Old, Orta biznes ilə iş şöbəsinin əməkdaşı Fərid Səmədzadə ilə görüşüb. Görüş zamanı şirkətimizə Böyük Britaniyanın Bakıdakı Səfirliyi ilə uzunmüddətli, sadiq və nümunəvi əməkdaşlığa görə sertifikat təqdim olunub. Bu mükafat Mühüm müştərilərlə iş və şəxsi sığorta növlərinin satışı departamenti ilə birgə fəaliyyət çərçivəsində nümayiş etdirilən yüksək peşəkarlığın, operativ xidmətin və qarşılıqlı etimadın bariz nümunəsidir.
Daha sonra əməkdaşımız Fərid Səmədzadə Böyük Britaniyanın Bakıdakı Səfirliyi tərəfindən korporativ təchizatçıların şərəfinə təşkil olunan təntənəli şam yeməyinə dəvət edilib.








# “30 il-Sonsuz ümid”




Mart ayının 11-də Marketinq və ictimaiyyətlə əlaqələr şöbəsinin təşəbbüsü ilə şirkətimizin 30 illik yubiley ili çərçivəsində “30 il-Sonsuz ümid” adlı qanvermə aksiyası təşkil olunmuşdur. Aksiya, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Respublika Qan Bankı və Milli Hematologiya və Transfuziologiya Mərkəzi ilə birgə əməkdaşlıq fəaliyyəti əsasında həyata keçirilmişdir. Layihənin əsas məqsədi, talassemiyadan əziyyət çəkən, eyni zamanda müxtəlif qan xəstəlikləri ilə mübarizə aparan uşaqlara dəstək göstərmək idi. ”Atəşgah Həyat” Sığorta Şirkətinin İdarə Heyətinin sədri Azər Əliyev başda olmaqla, şirkətimizin əməkdaşları aksiyada böyük həvəslə iştirak edərək, qanvermə prosesində yüksək həmrəylik nümayiş etdirmişlər.

Bu təşəbbüs şirkətimizin sosial məsuliyyət dəyərlərinə sadiqliyini bir daha əyani şəkildə sübut etdi . Aksiya, "Atəşgah" Sığorta Şirkətinin yalnız biznes fəaliyyətini deyil, həm də humanizmə və sosial məsuliyyətə olan sadiqliyinin bariz nümunəsidir. Şirkət olaraq, gələcəkdə də eyni prinsiplərlə bu cür layihələrlə cəmiyyətə faydalı olmağa davam edəcəyik!







# Onların sevinci bizim uğurumuzdur!

"30 il - Sonsuz ümid" layihəsi çərçivəsində 13 mart tarixində Marketinq və ictimaiyyətlə əlaqələr şöbəsinin təşəbbüsü ilə Milli Hematologiya və Transfuziologiya Mərkəzində talassemiyadan əziyyət çəkən uşaqlar üçün xüsusi bir tədbir təşkil olundu. Bu tədbir, Mərkəzdə müalicə alan uşaqlara unudulmaz anlar yaşatdı və onların üzündə təbəssüm yaratdı.
Novruz və Ramazan bayramlarının eyni dövrə təsadüf etməsi səbəbindən uşaqlar üçün əyləncəli və maraqlı şoular təşkil olundu, həmçinin şirkətimiz tərəfindən müxtəlif hədiyyələr təqdim edildi. Bununla yanaşı, daha mürəkkəb müalicə proseslərindən keçən uşaqlar da diqqətdən kənarda qalmadı. Belə ki, Marketinq kollektivi Novruz personajları ilə birgə Mərkəzi ziyarət edərək uşaqlara sevinc bəxş etdilər.
Əlavə olaraq, 11 mart tarixində təşkil olunan qanvermə aksiyası çərçivəsində toplanan qan ehtiyatlarının Mərkəzdə müalicə alan uşaqların müalicəsində istifadə edilməsi nəzərdə tutulmuşdur. Bu təşəbbüs həm də şirkətimizin sosial məsuliyyət dəyərlərinə verdiyi önəmi bir daha nümayiş etdirir.


AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
"MİLLİ HEMATOLOGİYA VƏ TRANSFUZİOLOGİYA MƏRKƏZİ" PUBLİK HÜQUQİ ŞƏXS

AZ1007, Bakı şəhəri, Nəsimi rayonu, Mirəli Qaşqay küçəsi 145
Tel.: (+994 12) 440 53 18; (+994 12) 440 67 08

Veb sayt: www.mhtm.az
elektron poçt: mhtm@azerhayat.az

13.03.2026-cı il

Ataşgah Sığorta Şirkəti ASC-nin rəhbərliyinə

Təşəkkürnamə

Mərkəzimizdə təşkil etdiyiniz **"Novruz Şənliyi"** tədbirində uşaqlara göstərdiyiniz diqqət və təqdim etdiyiniz hədiyyələr balaca pasiyentlərimiz üçün böyük sevinc və unudulmaz bayram əhval-ruhiyyəsi yaratdı. Sizin səmimiyyətiniz, qayğınız və sosial məsuliyyətiniz uşaqların üzündə təbəssümə, qəlblərində ümidə çevrildi.

Bu xeyirxah təşəbbüsünüzə və əməkdaşlığınıza görə Sizə minnətdarlığımızı bildirir, gələcək fəaliyyətinizdə uğurlar arzulayırıq. Ümid edirik ki, bu cür gözəl əməkdaşlığımız gələcəkdə də davam edəcəkdir.

Milli Hematologiya və Transfuziologiya Mərkəzinin Talassemiya bölməsinin kollektivi adından Sizə dərin təşəkkürümüzü bildiririk.

**Hörmətlə:**
**Milli Hematologiya və Transfuziologiya Mərkəzinin Talassemiya Bölməsinin Müalicə İşləri üzrə müavin**

**Səhər İsmayılova**











Tədbir Mərkəz rəhbərliyi tərəfindən yüksək qiymətləndirilmiş və sonda şirkətimizə bu xeyirxah təşəbbüsə görə təşəkkür məktubu təqdim edilmişdir. Bu layihə, şirkətimizin 30 illik fəaliyyətinin yalnız işgüzar uğurlarla deyil, həm də cəmiyyətə verdiyi töhfələrlə yadda qalacağını bir daha göstərir.

# KASKO *xəbərləri*

## *Hörmətli oxucular!*

2026-cı ilin ilk rübündə şirkətimiz müştərilərinə Kasko sığortası üzrə yeni və sərfəli təkliflər təqdim etmək məqsədilə iki xüsusi kampaniyanı uğurla həyata keçirdi. İlk olaraq təqdim olunan "Çin Ayı" kampaniyası, ardınca isə "Bayram Payı" kampaniyası müştərilərin böyük marağına səbəb oldu. Çin istehsalı olan avtomobillərin bazarda artan tələbi ilə əlaqədar olaraq, "Çin Ayı" kampaniyası, Çin markalı avtomobillər üçün 10% endirim təqdim etdi. Bu kampaniya, müştərilərimizin Kasko sığortasından daha sərfəli şəkildə faydalanmalarını təmin etdi. Bunun ardınca həyata keçirilən "Bayram Payı" kampaniyası isə Novruz və Ramazan bayramları ilə əlaqədar təşkil olundu və müştərilərə Kasko sığortası üzrə 10% endirim təqdim etdi.
Həyata keçirilmiş uğurlu kampaniyalar şirkətimizin müştəri məmnuniyyətini əsas prioritet kimi müəyyən etdiyini və sığorta sahəsində tətbiq etdiyi innovativ yanaşmaların effektivliyini bir daha təsdiq edir.






# "Çin Ayı" kampaniyasının çempionu



Malvina Novruzalova
Sığorta məsləhətçiləri ilə iş üzrə 1-ci şöbə

## I rüb üzrə fiziki şəxslərə KASKO məhsulunun satışı üzrə fərqlənmiş əməkdaşlarımız



Ruslan Əliyev
Pərakəndə satışların inkişafı departamenti



Aytac Abdıyeva
Telemarketinq



Emil Babayev
Pərakəndə satışların inkişafı departamenti



Fərqanə Qənbərova
Telemarketinq



Günel Əmirova
Pərakəndə satışların inkişafı departamenti

## I rüb üzrə fiziki şəxslərə KASKO məhsulunun satışı üzrə fərqlənmiş agentlərimiz



Malvina Novruzalova
Sığorta məsləhətçiləri ilə iş üzrə 1-ci şöbə



Aysel Əliyeva
Sığorta məsləhətçiləri ilə iş üzrə 1-ci şöbə



Asiman Hüseynov
Sığorta məsləhətçiləri ilə iş üzrə 2-ci şöbə



Pərviz Səfərli
Sığorta məsləhətçiləri ilə iş üzrə 1-ci şöbə



Sevinc Zeynalova
Sığorta məsləhətçiləri ilə iş üzrə 2-ci şöbə

# Göstərilən əzmkarlığın mükafatı




Şirkətimiz hər zaman əməkdaşların səylərini yüksək qiymətləndirir, onların peşəkar inkişafını dəstəkləyir və motivasiyasını artırmaq üçün müvafiq addımlar atır. Bu yanaşmanın bir nümunəsi olaraq, 2025-ci ilin iyul ayında başlayan Kasko üzrə yarış müvəffəqiyyətlə başa çatdı.
Bu məqsədlə, 27 fevral 2026-cı il tarixində Baş ofisdə "KASKO" yarışı üzrə yüksək nəticə göstərmiş sığorta məsləhətçilərinin mükafatlandırılması üçün xüsusi bir tədbir təşkil olundu.
1 iyul - 31 dekabr 2025 tarixləri arasında keçirilən yarışın əsas mükafatı Changan A05 markalı avtomobil idi. Tədbir, Marketinq və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı Kənan Cəfərov tərəfindən açıq elan olundu və rəhbər heyətin təbrik nitqləri ilə başladı.
İlk olaraq, yüksək nəticə göstərmiş sığorta məsləhətçiləri təşəkkürnamələr ilə təltif edildilər. Tədbirin ən həyəcanlı anı əsas qalibin müəyyən edilməsi oldu. İştirakçıların adları şəffaf yoxlama prosesindən keçirildikdən sonra nəhayət qalib müəyyən edildi. Beləliklə, "KASKO" yarışının əsas mükafatı olan Changan A05 avtomobilini Aysel Əliyeva qazandı. Qalibin üzündəki sevinc və məmnuniyyət hissi, tədbirə qatılan hər bir kəsdə xoş təəssüratlar yaratdı. Bu, onun göstərdiyi əzmkarlığın layiqli bir mükafatı idi!











# "Maraqlı faktlar" rubrikası



## Sığortanın tarixi:

İlk sığorta formaları eramızdan əvvəl 3-cü minillikdə Mesopotamiya (indiki İraq) ərazisində tətbiq olunmuşdur. Ticarət karvanlarının qorunması məqsədilə tacirlər yük itkisinin müəyyən hissəsini bölüşmək üçün bir-birlərinə ödənişlər edirdilər.



## Əmtəə itkilərinə qarşı təminat:

E.ə. 2000-ci illərdə Çində ticarətçilər bir-birlərinə əmtəə itkilərinə qarşı təminat verirdilər. Çinin qədim dövrlərində hər hansı bir dağılma, yanğın və ya digər fəlakətlər baş verərsə bu, "təminat" olaraq qəbul edilirdi.



## Ən qədim sığorta şirkəti:

1688-ci ildə Londonda qurulan Lloyd's of London dünyanın ən qədim və ən tanınmış sığorta təşkilatı sayılır. İlk olaraq, burada toplanan dəniz ticarətçiləri gəmilərinin və yüklərinin zərər görməsi riskinə qarşı razılaşmalar edirdilər.Bu, addım sığorta sistemlərinin təməlini qoyan mühüm bir başlanğıc idi.



## İlk Həyat sığortası:

İlk dəfə olaraq Həyat sığortası 1706-cı ildə Edinburq, Şotlandiyada yaradıldı. Bu sığorta insanların həyatlarını sığortalamaq üçün yeni bir üsul olaraq təqdim edilirdi. Ticarətçilər və zənginlər öz övladlarının və ya ailə üzvlərinin maliyyə təhlükəsizliyini təmin etmək üçün Həyat sığortasından faydalanırdılar.



## Avtomobil sığortası və tarixi:

İlk avtomobil sığortası 1897-ci ildə İngiltərədə tətbiq olunmuşdur. Bu, hər hansı bir avtomobilin başqalarına zərər vurması və ya özünün zərər görməsi risklərini qorumaq məqsədilə yaradılmışdı. İlk sığorta şirkətləri, sürücülərə avtomobil sığortası təklif edərək, bu sahədə ilk müasir addımları atmışdır.



## İlk Sağlamlıq sığortası:

İlk sağlamlıq sığortası planı 1890-cı illərdə ABŞ-da yaradıldı. Bu sığorta növü zəhmətkeşlərin və işçilərin xəstəlik zamanı gəlir əldə etmələrini təmin etmək məqsədilə ortaya çıxmışdı. İlk sağlamlıq sığortası planı həkim xidmətləri və xəstəxana xərclərinin ödənilməsi üçün müəyyən bir məbləğ ayırırdı.



## Sığorta və kompüter texnologiyası:

20-ci əsrdə, xüsusilə 1950-ci illərdə sığorta sənayesi kompüterləşməyə başladı. İlk kompüterlərlə sığorta müştərilərinin məlumatları toplanır, şərtlər və qiymətlər daha sürətli və effektiv şəkildə hesablanmağa başlanmışdır. Bu, sığorta sənayesinin genişlənməsini və səmərəliliyini artırdı.

# "Atəşgah" Sığorta Qrupunun Himni

Biz, inama doğru,
Nurlu sabaha yol gedirik.
Və işığa doğru,
Xoş gələcəyə biz baxırıq.
Səadəti, məhəbbəti… səninlə bölüşdük!

Nəqarət:
Ürəyimiz bir atəş,
Birgə döyünür ürəyinlə
Qəlbimiz bir səs,
Birgə oxuyur qəlbinlə
Nəbzimiz, könlümüz, arzularımız səninlə
Gülümsə həmişə, Arxayın yaşa!

Biz, inama doğru
Nurlu sabaha yol gedirik
Və işığa doğru
Xoş gələcəyə biz baxırıq
Səadəti, məhəbbəti… səninlə bölüşdük!

Nəqarət:
Ürəyimiz bir atəş,
Birgə döyünür ürəyinlə
Qəlbimiz bir səs,
Birgə oxuyur qəlbinlə
Nəbzimiz, könlümüz, arzularımız səninlə
Gülümsə həmişə,
Arxayın yaşa!